# Qriqorian kilsəsi, erməniliyin casusluq mərkəzi

**Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Ramiz Mehdiyev oxucuları növbəti əsərilə - "Qriqorian kilsəsi Səfəvi dövlətinə qarşı casusluq aləti kimi" kitabı ilə bir daha sevindirmişdir. Akademik Ramiz Mehdiyev adıçəkilən əsərində bu problematikanın çox maraqlı və aktual aspektinə toxunur. Əsər Qriqorian kilsəsinin Səfəvi dövlətinə qarşı məkrli siyasətini ifşa edir.**

**Əsərin mühüm aktuallığı bundadır ki, Ramiz müəllim bu günə kimi milli tarixşünaslıqda işlənməmiş problemi araşdırır və oxucularına elmi cəhətdən əsaslandırılmış ümumiləşdirmələr təqdim edir.**

Biz, bəzən türk xalqları, onların dövlətçiliyi barədə müsbət yazıları oxuyanda az qala eyforiyaya qapılırıq. Əlbəttə, avropalı müəlliflərin türklər haqqında müsbət mülahizələri çox sevindirici haldır. Lakin bu gün bizim üçün, müəllifin qeyd etdiyi kimi, xeyrimizə olmayan faktları "dindirmək", keçmişimizi daha dərindən öyrənmək, tarixşünaslıqda bu boşluğu doldurmaq lazımdır. Bu sahədə ermənilərin türk xalqlarına qarşı məkrli siyasətini daha inamla ifşa etməliyik. Ramiz müəllim düzgün olaraq göstərir ki, keçmişin faktları bizdən həmişə sayıq olmağı tələb edir və ermənilərlə ünsiyyətdə olarkən onların xainliyini unutmamaq lazımdır (s.7).

Əsərin mühüm məziyyəti bundadır ki, burada Qriqorian kilsəsinin mənfur siması tutarlı tarixi faktlarla ifşa olunur və bizə bu günə kimi məlum olmayan tarixi faktlardan istifadə olunur. Xristianlığın qiyafəsində gizlənən, özlərini dünya ictimaiyyətinə məzlum xalq kimi tanıtmaq üçün dəridən-qabıqdan çıxan ermənilər hər bir əməldə müsəlman türklərini günahlandırırlar. Onlar əvvəlcə Avropa xristianlarına "pənah gətirmiş, lakin sonralar üzlərini xristian Rusiyasına tutmuşlar. Son nəticədə türk xalqlarına qarşı mübarizədə həm avropalılara, həm də ruslara kölə kimi xidmət etmişlər". Müəllif bu prosesi tutarlı tarixi faktlar əsasında təhlil edir və erməniliyin mənfur simasını ifşa edir.

Əlbəttə, müəllif tədqiqatında əsas diqqətini erməni kilsə bayquşlarının Səfəvi dövlətindəki xain hərəkətlərinə verir. Tarixi faktlar danılmaz şəkildə sübut edir ki, nəinki erməni tacirləri, hətta onların din xadimləri İranda və Azərbaycanda böyük güzəştlərə malik olmuşlar. Ramiz müəllimin haqqında söhbət gedən əsərinin mühüm məziyyətlərindən biri də budur ki, erməni Qriqorian kilsəsinin satqınlığını erməni tarixçilərinin öz yazdıqlarına əsaslanaraq ifşa edir. Tarix elmində türklərə qarşı ən xain mövqedə duran S.Veremyanın yazdıqlarında görünür ki, erməni tacirləri və din xadimləri guya "erməni xalqının taleyi naminə" Türkiyə və İrana qarşı mübarizədə avropalılara arxalanmışlar.

Erməni tarixçiləri bu gün də Səfəvi dövlətində guya ermənilərə divan tutulması barədə cəfəngiyatı yaymaqdan əl çəkmirlər. Səfəvilər müsəlman dövləti olmağına baxmayaraq, burada erməni Qriqorian kilsəsi məbədləri müstəqil, heç bir təqibə məruz qalmadan fəaliyyət göstərirdilər. Əsərdə bu məqam tarixi faktlarla əsaslandırılır. Təbii ki, bu ölkədə yaşayan onun qanunlarına əməl etməli, yerli adətlərə hörmətlə yanaşmalı və vaxtında vergilərini verməlidir. Ermənilərdən bundan artıq heç nə tələb olunmurdu. Yaşadığı yerlərdə öz əhalisinin sayını artırmaq ermənilərdə genetik bir xəstəlikdir. Müəllif haqlı olaraq yazır ki, qərb müəllifləri belə bir faktı nəzərə almırlar ki, Culfa bölgəsində heç bir vəchlə 350 min erməni ola bilməzdi (s.38).

Katolik missiyaları İranda və Azərbaycanda əvvəlcə diplomatik örtükdə fəaliyyət göstərirdilər. Sonralar bu missionerlik, xüsusilə Qriqorian kilsəsi casusluq yuvasına çevrilmişlər.

Müəllif tarixi faktları təhlil edərək yazır ki, Eçmiədzin və erməni tacirləri həmişə konkret tarixi dövrdə öz tələblərinə uyğun olaraq xarici qüvvələrlə əməkdaşlıq qurmuşlar. Səfəvi dövründə də belə olmuşdur.

Qərb diplomatiyasının və katolik missiyalarının İranda və Azərbaycanda niyyətlərinin mahiyyətini bilən kimi ermənilər siyasi proseslərə bacarıqla uyğunlaşırdılar (s.89). Erməni tacirləri Səfəvi dövlətində bütün mümkün güzəştlərə malik olmalarına baxmayaraq, o dövrün iri bazarlarında mövqelərini möhkəmlətmək üçün qərbdə özlərinə himayəçilər axtarırdılar. Erməni Qriqorian kilsəsinin nümayəndələri də bu işdən faydalanmağa can atırdılar. Əsərdə oxuyuruq: Erməni mənbələrinin və eləcə də missioner ordenlərinin fəaliyyəti ilə bağlı materialların diqqətlə öyrənilməsi birmənalı şəkildə belə bir faktı sübut edir ki, belə əməkdaşlığa ermənilər hələ XVI əsrin ikinci yarısından Şah Təhmasibin sarayına qərb diplomatik missiyaları tez-tez gəldikləri zaman səy göstərmişlər (s.90). Ermənilər Avropa diplomatları ilə əlaqəyə girmək üçün hər cür vasitələrdən istifadə edirdilər. Əsərdə göstərilir ki, Eçmiədzin nümayəndə heyəti Avropaya ilk iki səfəri zamanı (1547 və 1562) qarşılıqlı əlverişli əməkdaşlıq məsələlərini müzakirə etmişlər, hərçənd erməni müəllifləri Vatikanı ermənilərin taleyinə biganə qalmaqda günahlandırmağı lazım bilmişlər. Maraqlıdır ki, erməni müəllifləri bu səfərləri gizli adlandırmışlar (s.90-91). Roma Papası ilə Qriqorian kilsəsinin münasibətlərini diqqətlə öyrənəndə istər-istəməz hiss edirsən ki, bu, dini əlaqələrdən daha çox siyasi oyunlara bənzəyir. Əsərdə bu məqam faktlar əsasında çox peşəkarcasına təsvir edilir. Ermənilər öz hərəkətləri ilə özləri haqqında xain və casus obrazını o qədər aydın şəkildə yaradırdılar ki, ayrı-ayrı ordenlərin nümayəndələri arasında onların "yüngül ov" kimi ələ alınması ətrafında mübahisələr düşürdü. Ermənilərin ələ alınması işində Vatikan agenturasının fəaliyyətinə əsərdə xüsusi yer ayrılır. Akademik Ramiz Mehdiyev göstərir ki, Vatikanın səyilə Azərbaycanın və İranın iri şəhərlərində imkan düşdükcə, katolik təmayüllü dini məktəblər açılırdı, Şirazda, İsfahanda, Təbrizdə, Bakıda, Gəncədə, Şamaxıda və digər şəhərlərdə belə məktəblər fəaliyyət göstərirdilər (s.96). Katolik missionerləri kütlələrə psixoloji təsir priyomları ilə əla işləyirdilər.

Emissarların ələ aldıqları və saraya daxil olmaq ixtiyarı olan ermənilər çox hallarda öz sifarişçilərini şahların niyyətləri və planları barədə xəbərdar edirdilər (s.99). Hər bir fəaliyyətin gur inkişaf dövrü olduğu kimi, tənəzzül dövrü də olur. Cənubi Qafqazın, o cümlədən Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsindən sonra katolik missiyasının regiona daxil olmasına son qoyuldu. Əsərin dördüncü fəslində akademik Ramiz Mehdiyev Səfəvilərin süqutu və Rusiyanın yüksəlməsi Qriqorian kilsəsinin fəaliyyətindən, erməni ruhanilərinin yeni satqınlıq dövrünə qədəm basmaları ilə bağlı maraqlı tarixi faktlar araşdırır. Rüşvət və bahalı hədiyyələr verməkdə mahir olan ermənilər çar yuxarı dairələrinə tezliklə yol taparaq öz xidmətlərini təklif etməkdə davam etdilər. Erməni tacirləri və Qriqorian kilsəsinin xadimləri "Səfəvi dövlətinə qarşı siyasətlərini daha açıq və sərbəst şəkildə" aparmağa başladılar. Onlar hətta Səfəvilərlə hərbi mübarizənin mümkün perspektivlərini də müzakirə etməyə başlayırlar. Artıq yüksəlmiş Rusiya ermənilər üçün öz məkrli siyasətlərini həyata keçirmək məqsədilə daha etibarlı dayaq kimi görünməyə başlayır. Ermənilərin maraqları ilə ölkənin cənubunda Rusiyanın xristian forpostunu yaratmaq planları üst-üstə düşürdü.

Lakin ermənilər və Rusiya Nadir şah Əfşar (1736-1747) fenomeni ilə üzləşməyi gözləmirdilər. Ramiz müəllim əsərində tam aydınlığı ilə




Azərbaycan xalqının böyük oğlu, məşhur sərkərdə Nadir şahın Səfəvilərin keçmiş torpaqlarını geri qaytararaq Qafqazdan Hindistanadək, Fars körfəzindən Əfqanıstana və Orta Asiyayadək yaratdığı imperiyasından bəhs edərkən yazır ki, onun (Nadir şahın-red.) hakimiyyəti illərində erməni separatizmi tamamilə gizli şəraitə keçir, bununla belə Rusiya hökuməti ilə gizli əlaqə saxlamaqda davam edir (s.151) .

Ermənilərin Rusiyaya "ayaq açmasında" Rusiya İmperatoru I Pyotrun "böyük xidməti" olmuşdur. Belə ki, 1722-ci ildə Rusiya ordusunun Xəzər sahilini işğal etdikdən sonra o, çalışırdı ki, Dağıstanda və Azərbaycanda müsəlmanların yaşadığı torpaqlarda xristianları məskunlaşdırsın. Bu məqsədlə I Pyotr İstanbulda Rusiya nümayəndəsi A.Rumyantsevə xüsusi göstəriş verir ki, Osmanlı imperiyasında yaşayan ermənilərin Rusiya imperiyasının yenicə yaranmış Xəzər vilayətinə köç etməsini təmin etsin. Dərbənd vilayətində o zaman müsəlman azərbaycanlıları çoxluq təşkil edirdilər. Rumyantsev erməniləri inandırmalı idi ki, yerli əhalini köçürüb hökumət torpaqlarında erməniləri yerləşdirərək, onlara çoxlu güzəştlər ediləcəkdir. Beləliklə, Qafqazın erməniləşməsi Azərbaycandan başlamalı idi. Rusiya çarı məhz Osmanlı ermənilərinin Azərbaycan torpaqlarında yerləşdirilməsinə çalışırdı, çünki birincisi, o dövrdə ermənilərin əsas kütləsi Osmanlı sultanının torpaqlarında yerləşirdilər; ikincisi, Rusiyanın Qafqaz uğrunda mübarizəsində əsas rəqibi Osmanlı imperiyası idi; üçüncüsü, görünür, Pyotr ermənilərin psixologiyasını yaxşı bildiyindən hesab edirdi ki, düşməni olan osmanlıları öyrənmək üçün ermənilər daha gərəkli ola bilər; dördüncüsü, Rusiya düşməninin içində ermənilərdən ibarət "beşinci koloniyanın" yaradılmasını öz siyasətində daha məqsədəuyğun hesab edirdi; beşincisi, I Pyotr hesab edirdi ki, bu vasitə ilə Qafqazda xristianları artırar, həm də müsəlman arealında özünə xristian dayağı yarada bilər. Bu işdə Qriqorian kilsəsi "dəridən, qabıqdan çıxırdı" ki, Rusiyadan gələcəkdə erməni dövlətinin yaradılmasında dəstək alsın. Lakin "Erməni dövlətini yaratmaq ideyası" Rusiyanın Qafqazdakı strateji planına daxil deyildi. Başlıca məsələ Qafqazı xristianlaşdırmaq idi və qlobal planı I Pyotrdan sonrakı Rusiya imperatorları davam etdirmişlər.

Belə bir cəhəti də qeyd edək ki, I Pyotrun fəal Qafqaz siyasətinə qədər Rusiyada erməni kilsəsinə çox mənfi yanaşırdılar, onların dinini bidətçilik kimi qəbul edirdilər. Belə bir münasibət Rusiyanın Bizansdan əxz etdiyi siyasətlə bağlı idi. Bizans imperiyasında ermənilər bu dövlətin düşməni olublar. Görünür, erməni kilsəsinin casusluğu Bizansda da özünü büruzə verib. Bizansdan köçən ermənilər tədricən ticarətlə məşğul olurlar və çar xəzinəsinə gəlir gətirməyə başlayırlar. Türkiyənin və İranın zəifləməsinin bir mənbəyini rus çarizmi erməni kilsəsinin bu ölkələrdə yaşayan erməni əhalisinə təsirində görürdü. II Yekaterinanın vaxtında erməni kilsələrinin sayı daha da artırdı. Türkiyəni və İranı içəridən zəiflətmək işində ermənilərdən istifadə məsələsi Rusiya diplomatiyasının gündəliyindən düşmürdü. Əlahəzrətin himayəçiliyini ehtiram hissi ilə qəbul edən ermənilər Naxçıvan na Donu (Rostov na Donu) yaxınlığında bir yerdə II Yekaterinaya heykəl ucaltmışdılar. Doğrudur, Sovet dövründə bu heykəli uçurtdular, lakin Sovetlər İttifaqı dağıldıqdan sonra yerli ermənilər yenidən II Yekaterinaya heykəl qoydular. Göründüyü kimi, ermənilər tarixi belə bərpa edirlər.

İmperator I Aleksandr isə "xidmətlərinə" görə ermənilərin Dərbənd ətrafında yerləşməsinə 1802-ci il 21 dekabr fərmanı ilə icazə vermişdi. Rusiya imperiyası Qafqazı fəth etdikdən sonra (təbii ki, ermənilərin casusluq fəaliyyəti bu işdə az rol oynamayıb) tarixin saxtalaşdırılması səhifəsində yeni termin qondarma "Qafqaz Ermənistanı" adı meydana gəlir.

Qafqazda yaşayan müsəlman əhalisi içərisində təxribat, fitnə-fəsad törətmək üçün münbit şərait yaranır. Şərait deyərkən biz belə bir cəhəti nəzərə alırıq: İranı və Türkiyəni ermənilərdən istifadə etməklə zəiflətmək məsələsində "erməni xidmətləri" sayəsində erməni Qriqorian kilsəsinin fəaliyyəti Rus çarizmi tərəfindən layiqincə qiymətləndirilirdi. Yeni Naxçıvan, Armavir, Mozdok, Qizlyar, Qriqoropol kimi erməni koloniyaların yaranması təsadüfi deyildi.

Bu kontekstdə müəllifin əsərindəki ideyanı unutmayaq: heç bir dövlət hakimiyyəti erməni xidmətindən istifadə etdiyindən füsunkar olmamalıdır (s.6). Sosial psixologiya sübut etmişdir ki, etnogenezisində çoxlu etnosların iştirak etdikləri xalq öz xarakteri ilə heç bir xalqla davranışca uyuşmur və hər cür yaltaqlığı qəbul edir və hər cür xəyanətə hazır olur. Məhz bu fikir, bilavasitə erməni xalqının xarakterində öz əksini tapır.

Amma erməni tarixçiləri unudurlar ki, Səfəvi hakimləri Qriqorian kilsəsi xadimlərinə sərbəst fəaliyyət imkanı yaradırdılar. Rusiya dövlətinin Qriqorian kilsəsinə münasibəti heç sovet dövründə də, demək olar ki, dəyişməmişdir. Məsələn, 1965-ci il aprelin 24-də ermənilər açıq-aydın şəkildə qondarma "ermənilərin soyqırımı (genosid)" deyilən hadisənin 50 illiyini qeyd etmişlər. Həmin gün iki ictimai tədbir keçirilmişdir. Siyasi maarif evində xatirə gecəsi və hakimiyyətin sanksiyalaşdırmadığı İrəvanın rayonlarının birində xalq nümayişi keçirilmişdir. Doğrudur, hüquq-mühafizə orqanları tərəfindən nümayiş dağıdılsa da, Moskva hökuməti buna reaksiya verməmişdir. Yerli Ermənistan hökuməti nümayişin təşkilatçılarını formal olaraq həbs etmiş, onlara bir-iki günlük cəza tətbiq etmiş, sonradan azad etmişdir. Nümayişin təşkilatçıları sonradan yeni erməni antikommunist, antisovet təşkilatı yaratmışlar. Onların bu hərəkəti Ermənistan hökumət strukturlarının gözü qarşısında baş verirdi.

Bütün faktlar sübut edir ki, "Ermənistan milli birləşmiş partiyası" heç də öz- özünə yaranmış qurum olmayıb, bu, o dövrdəki Ermənistan hökumətinin bəyəndiyi layihə idi. Bu partiyanın əslində cinayətkar ünsürlərdən ibarət üzvləri yeni spontan millətçilərdən ibarət partiya yaradıb, "Ermənistan milli birləşmiş partiyası" ermənilərin millətçilik siyasətini davam etdirmək niyyətinində idi. Lakin 1977-ci il yanvarın 8-də erməni terrorist qrupunun bilavasitə iştirakı ilə Moskva metrosunda baş vermiş partlayış bu layihəyə son qoydu. Moskvadakı terrorist aktlar Ermənistan SSR-in erməni millətçiliyindən Sovet İttifaqının mənafeyinə uyğun fəal terrorizm planlarını həyata keçirmək niyyətlərini puç etdi. Qriqorian kilsəsinin dəstəklədiyi bu məkrli planların pozulması erməni diasporuna təsir üçün yeni formalar axtarışını "aktuallaşdırdı". Buna təkan verən "qüvvə" Sov.İKP Mərkəzi Komitəsinin 1978-ci il 27 dekabr tarixli "Xaricdə yaşayan ermənilərlə işin gücləndirilməsi haqqında" "tamamilə məxfi" qrifti aktında qəbul edilmiş qərar oldu.

Bu fakt göstərir ki, Sovet İttifaqında Ermənistan SSR-ə bütün müttəfiq respublikalarla müqayisədə böyük üstünlüklər verilir və qanunsuz güzəştlər edilirdi. Əgər yerdə qalan 14 respublikalarda ən cuzi şəkildə təzahür edən siyasi millətçilik amansızcasına yatırdılırdısa, xalqların bütün mədəni irsi yalnız folklor rəqslərə və mahnılara müncər edilirdisə, Ermənistan SSR-in ərazisində ermənilərin hərəkətlərinə tam sərbəstlik verilirdi. SSRİ ilə Ermənistan SSR bu birgə hərəkətlərinə tam şüurlu yanaşılırdı, çünki ermənilərin millətçilik hərəkətləri Sov.İKP siyasi bürosunun mövqeyincə, əslində SSRİ-nin erməni diasporuna geosiyasi təsirinin gücləndirilməsi üçün çox vacib idi.

ABŞ, Böyük Britaniya və Fransa kəşfiyyat dairələri erməni diasporundan SSRİ-nin daxili və xarici siyasətini zəiflətmək üçün istifadə edirdilər. Göründüyü kimi, erməni diasporu casusluq ocağı olmaqla iri dövlətlərin geosiyasi əməllərinin həyata keçirilməsində çirkin alət rolunu oynayır. Heç şübhəsiz ki, ermənilərin bu məkrli hərəkətlərinə ilk növbədə Qriqorian kilsəsi xeyir-dua verir.

Ermənilər öz geosiyasi planlarını həyata keçirmək, "ümumi erməni işinə" töhfə vermək üçün Qriqorian kilsəsinin kanonlarında çirkin formada istifadə edirlər. Lakin onlar Qriqorian kilsəsinin kanonlarına zidd priyomlardan da istifadə etməkdən çəkinmirlər. Erməni ideoloqları erməni beynini həmişə təlatümdə saxlamaq üçün erməni eposunda adları çəkilən bidətçi obrazlara heykəllər ucaldırdılar. "Əjdahaya qalib gələn Vaaqu" İrəvanda qoyulmuş "məşhur" heykəllərdən biri olub. (1969-cu ildə) 1970-ci lillərin ortalarında bir müddət "Rəssamlar evi" yaxınlığında "Moskva" kinoteatrının yanında da bu heykəl qoyulmuşdur. "Ayk Haapet" heykəli 1972-ci ildə İrəvan yaxınlığında ucaldılıb, yaxud 1982-ci ildə İrəvan yaxınlığında "Tork Anqex" heykəli - bütün bunlar əhali içində ateizmin təbliğinə riyakarlıqla rəvac verən Sovetlər İttifaqında, başqa xalqlara belə bir əməl üçün ağır cəza verilən ölkədə baş verirdi. Erməni millətçiləri İrəvanda "Ermənistan əsgəri" heykəli adı ilə üzdən, Andronikin təsvir edildiyi heykəli də qoymuş və bütün bu bədnam əməllər Qriqorian kilsəsinin xeyir-duası ilə verilirdi. Ermənistanın kommunist rəhbərliyi hətta Qriqorian kilsəsinin kanonlarına məhəl qoymayaraq, yeni erməni bidətçilik ideologiyasının yaradılmasına rəvac vermişdir. Yalnız belə bir ölkə erməni terrorizmi üçün münbit zəmin yarada bilər. Lakin bu, başqa mövzudur. Rəyin bu hissəsinin hazırlanmasında "Кузнетцов О.Ю. История транснационального армянского терроризма в XX столетии". Б., Изд. Дом Шарг-Гарб, 2015 mənbəsindən istifadə edilmişdir.

İndi bir məsələ də aydınlaşır: Qriqorian kilsəsinin riyakar siması ilə tanışlıq belə həqiqətə inanmağa vadar edir: erməni tarixçiləri Matanderan arxivlərini ona görə açmırlar ki, Qriqorian kilsəsinin fəaliyyəti ilə bağlı daha dəhşətli, daha müdhiş faktlar üzə çıxa bilər.

Sonda demək istərdik ki, akademik Ramiz Mehdiyevin zəngin tarixi faktlar əsasında, elmi-metodoloji baxımdan yüksək səviyyədə yazılmış əsəri oxuculara çox dəyərli hədiyyədir və əminik ki, böyük maraqla oxuduğumuz bu monoqrafiya tarixçilərin stolüstü kitabı olacaqdır.

**Qoşqar ƏLİYEV,**
**Fəlsəfə üzrə elmlər doktoru, professor.**